Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda ictimai və dövlət maraqlarının uzlaşdırılmasında siyasi partiyaların rolu...

## İctimai və dövlət maraqlarının müdafiəsi

**Bu gün ictimai marağın müdafiəçisi və ona nəzarət edən dövlət cəmiyyətin bütün qruplarının marağında olan sosial məsələlərin həllinə çalışır. Dövlət müxtəlif formada atılan addımlarla da öz vətəndaşının, cəmiyyətin rifah halının yüksəlməsinə nail olur. Son dönəmlər ölkəmizdə baş verən islahatlar dövlətin ictimai maraqların təminatçısı rolunda çıxış etməsinin nəticəsidir.**

Həyata keçirilən çoxşahəli sosial islahatlar, struktur dəyişiklikləri həmin maraqların tam təmin olunmasına yönəldilib. Yəni dövlət üçün cəmiyyətin maraqlarını təmin etmək əsas məsələ hesab edilir. Onun ayrı-ayrı nümunələrini bu gün həyata keçirilən təhsil, səhiyyə, gənclər, idman siyasətində də görmək olar. Bunu eləcə də, ictimai maraqların təmin edilməsində, vətəndaş cəmiyyəti institutlarının, kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin verilməsində görmək mümkündür. Bir sözlə, dövlət üçün sözügedən sahələrin inkişafı prioritet kəsb edir. Bundan başqa, dövlətin maraqlarına daxil olan siyasi-iqtisadi, hərbi-təhlükəsizlik kimi məsələlərdə ictimai maraqların təmin olunması da əsas şərtdir.

### Siyasi partiyalar da ictimai və dövlət maraqlarının qorunmasında vacib rol oynamalıdır

Qeyd edilənlərdən gəldiyimiz nəticə odur ki, tərəqqi və inkişaf üçün mütləq iki tərəfin olması zəruridir. Bu tərəflər isə, göründüyü kimi, cəmiyyət və dövlətdir. Sivil cəmiyyətin və dövlətin formalaşması da həmin məfhumları özündə təcəssüm etdirən vətəndaş-dövlət münasibətlərindən çox asılıdır. Qeyd edilənləri ümumiləşdirsək, dövlətin maraqları ilə ictimai maraqlar bir-biri ilə sıx bağlı olduğundan, onları ayrılıqda təsəvvür etmək də mümkün deyil. Eyni zamanda, ictimai və dövlət maraqlarının müdafiəsi də hər iki tərəfi eyni dərəcədə düşündürən, onları bir araya gətirən məsələdir.

Cəmiyyətin ən vacib siyasi institutlarından olan siyasi partiyalar da ictimai və dövlət maraqlarının qorunmasında vacib rol oynamalıdır. Son vaxtlar biz siyasi partiyaların ümumilli məsələlərdə vahid bir ideya ətrafında birləşdiyinin şahidi oluruq.

### 48 siyasi partiya Şuşa Bəyannaməsini dəstəklədi

Bir müddət əvvəl Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə əlaqədar bəyanat yayıblar. 48 partiyanın imzaladığı bəyanatda deyilir:

"2021-ci il iyunun 15-də - tarixi Qars müqaviləsindən yüz il sonra iki dost və qardaş ölkə arasında imzalanan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi böyük tarixi və strateji əhəmiyyətə malikdir. Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin söylədikləri "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və "Bir millət, iki dövlət" ifadələrinin xalqlarımızın millimənəvi sərvəti kimi dəyərləndirildiyi bu Bəyannamə iki qardaş ölkə arasındakı bütün strateji əlaqələri ən



yüksək səviyyəyə qaldırır. Azərbaycan-Türkiyə münasibətlərinin bu şəkildə inkişafı dostlarımızı sevindirir, ölkəmizin güclənməsini, rifahını və təhlükəsizliyini istəməyənləri isə məyus edir.

Biz - Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirən Şuşa Bəyannaməsinin mühüm tarixi və strateji əhəmiyyət kəsb etdiyini bildiririk…"

### 48 partiya Baydenə birgə etiraz etdi…

Məhz 48 sayda siyasi partiya ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı mövqeyinə dair də birgə bəyanat yayıb. Bəyanatda deyilir: "Tarixi saxtakarlıqlar üzərində qurulmuş erməni dövlətçiliyi bütün dövrlərdə müxtəlif təxribatlara əl atıb. Onilliklər ərzində erməni təbliğat maşını və onun havadarları Osmanlı imperiyasında ermənilərə qarşı "soyqırımı" törədildiyini sübut etməyə və bütün dünyanı buna inandırmağa cəhd göstərib. Həqiqət isə odur ki, Birinci Dünya müharibəsi zamanı çətin döyüş şəraiti, daxili münaqişələr, aclıq və xəstəliklər üzündən çoxlu sayda erməni həyatını itirib. Lakin məqsədyönlü şəkildə unudulur ki, həmin dövrdə ermənilərdən daha çox türklər həlak olub…"

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar hər zaman qardaş Türkiyənin yanında olduqlarını bildirir və xəstə erməniçilik idealları bəsləyən ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsinə dair mövqeyini qətiyyətlə pisləyirlər. Ölkələr və xalqlar arasında dözümsüzlük təlqin edən bu cür yanaşmalar ayrı-ayrı regionların və ümumilikdə bəşəriyyətin dayanıqlı sülhpərvər inkişafına təhdid törədir.

Bütün bunlar bir daha sübut edir ki, Azərbaycanda fəaliyyət göstərən əksər siyasi partiyalar ümumilli maraqlarla bağlı birləşə bilir. Yalnız bir-iki radikal mövqeli partiyaların belə məsələlərdən kənarda qalması nəticəyə təsir etmir. Bu o anlma gəlir ki, ölkəmizdə ictimai və dövlət maraqlarının qorunmasında siyasi partiyalar bir institut olaraq yaxından iştirak edir.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**